## “PASHA Travel” Aksiyasının Qaydaları

### Anlayışlar və onların təfsiri

**Bank** – fiziki və hüquqi şəxslərdən əmanətləri və ya digər qaytarıla bilən vəsaitləri cəlb edən, öz adından və öz vəsaiti hesabına kreditlər verən, habelə müştərilərin tapşırığı əsasında toplu köçürmə və nağd kassa hesablaşmaları üzrə əməliyyatlar həyata keçirən, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fəaliyyət göstərən hüquqi şəxsdir.

**Xidmət** – 1 (bir) fiziki şəxsə Şengen ölkələrinə, Amerika Birləşmiş Ştatlarına və ya Böyük Britaniya və İrlandiya Birləşmiş Krallığına daxil olmaq üçün turistik viza almaq imkanı verən Bankın müştəriləri üçün nəzərdə tutulmuş xüsusi xidmətdir.

**Aksiya** – “PASHA Travel” promoaksiyasıdır.

**Sifarişçi** – “Viza İnterneşnl Servis Assosieyşn”, ünvanı: ABŞ, CA 94404 – 2775, Foster Siti şəhəri, Metro Senter bulvarı, 900.

**Kartlar** – Aksiya İştirakçısına Aksiyada iştirak etmək hüququ verən, Bank tərəfindən buraxılmış Visa Infinite ödəniş kartlarıdır.

**Messencer** – ani mesajlaşma və video mübadiləsi üçün tətbiqi proqram, xüsusən də Viber, Telegram.

**Təşkilatçı** – “INFOCUS.EUROPE” s.r.o, poçt ünvanı: Çexiya Respublikası, Pitterova küçəsi, 2855/7, Jijkov, 130 00, Praqa 3., eyniləşdirmə kodu: 090 94 296.

**Tərəfdaş** –“PASHA TRAVEL” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ, hüquqi şəxsin eyniləşdirmə kodu: 1700767721.

**Qaydalar** – Aksiyanın hazırkı qaydalarıdır.

**Aksiya müddəti** –29.02.2024-cü il saat 00:00:01-dən 31.12.2024-cü il saat 23:59:59-dəkdir.

**Aksiya İştirakçıları** – hazırkı Qaydaların müddəalarına uyğun olaraq Aksiyada iştirak etmək hüququna malik olan fiziki şəxslər, Kart Sahibləridir. Xidmətdən Bank tərəfindən seçilmiş Kart Sahibləri istifadə edə bilər.

**Çatbot** - https://mssg.me/service_concierge keçid linkində yerləşən “Visa Concierge” çatbotu və ya Messencerlərdə olan https://mssg.me/concierge__service linkidir.

### 1. Aksiya İştirakçıları tərəfindən Aksiyada iştirak qaydası

**1.1.** Aksiyada iştirak etmək üçün Aksiyada iştirak etmək və Aksiya İştirakçısı olmaq istəyən şəxs Aksiya Müddəti boyunca aşağıdakı hərəkətləri icra etməlidir:

**1.1.1.** Cari Kart Sahibi olmaq;
**1.1.2.** Çatbotun daxili qeydiyyat proseduruna uyğun olaraq Çatbotda qeydiyyatdan keçmək və ya qeydiyyatdan keçmiş olmaq;
**1.1.3.** Çatbotun əsas menyusunda "Pasha Travel" düyməsini basmaq və "Şengen", "Böyük Britaniya" və ya "ABŞ" viza növünü seçmək;
**1.1.4.** Aksiya haqqında məlumat ilə tanış olmaq;
**1.1.5.** Çatbotda ad, soyad, ata adı və telefon nömrəsini təqdim etmək.

**1.2.** Hazırkı Qaydaların 1.1.1. – 1.1.5.-ci bəndlərində göstərilən hərəkətlər uğurla yerinə yetirildikdə, şəxs Aksiyanın İştirakçısı olur.

**1.3.** Hazırkı Qaydalar Aksiya İştirakçısı ilə Təşkilatçı/Sifarişçi/Tərəfdaş arasında rəsmi qarşılıqlı münasibətlərdə əsas sənəd hesab edilir. Aksiya İştirakçısı tərəfindən bu Qaydaların müddəalarının qəbul edilməsi hazırkı Qaydaların 1.1.1.-1.1.5-ci bəndlərində göstərilən hərəkətlərin ardıcıl yerinə yetirilməsi yolu ilə həyata keçirilir.

**1.4.** Aksiya İştirakçısı tərəfindən qəbul prosesi könüllü olaraq həyata keçirilir və bu Qaydaların şərtləri əsasında yazılı müqavilənin bağlanmasını özündə ehtiva edir.

**1.5.** Qaydaların qismən qəbulu yolverilməzdir.

**1.6.** Kart Aksiyanın bütün qüvvədə olma müddəti ərzində etibarlı olmalıdır.

**2. Xidmətdən istifadənin xüsusiyyətləri**

2.1. Aksiya İştirakçısı Qaydaların 1.1.1.-1.1.5-ci bəndlərində göstərilən hərəkətləri yerinə yetirdikdən sonra Təşkilatçı 1.1.5-ci bənddə göstərilən məlumatları Tərəfdaşa təqdim edir.

2.2. Tərəfdaş 30 dəqiqə ərzində Aksiya İştirakçısına onunla yaxın vaxtda əlaqə saxlayacağına dair mətni əks etdirən SMS mesajı göndərir. Tərəfdaş Aksiya İştirakçısı ilə telefon vasitəsilə əlaqə saxlayır. Tərəfdaş iş saatları ərzində (bazar ertəsi - cümə günləri saat 09:00-dan 18:00-a qədər; həftə sonları, yəni Şənbə/Bazar/Dövlət bayramları istisna olmaqla) fəaliyyətini həyata keçirir.

2.3. Aksiya İştirakçısı Xidməti əldə etmək üçün onunla Tərəfdaş arasında razılaşdırılmış lazımi sənədləri Tərəfdaşa təqdim edir. Təşkilatçı bu cür sənədlərin təhlükəsizliyinə və qorunmasına görə məsuliyyət daşımır. Aksiya İştirakçısı sənədləri və məlumatları Tərəfdaşa ötürdüyü andan etibarən Təşkilatçının məsuliyyət daşımadığı Aksiya İştirakçısı və Tərəfdaş arasında müvafiq müqavilə münasibətləri yaranır.

**2.4.** Xidmətdən Aksiya İştirakçısı yalnız öz məqsədləri üçün istifadə edə bilər. Xidmət ildə 1 (bir) dəfə göstərilir.

**2.5.** Aksiya Müddəti ərzində istifadə olunmamış Xidmət başqa vaxta keçirilə, yığıla, əlavə edilə və ya pul və ya digər kompensasiyaya məruz qala bilməz.

**3. Tərəflərin Məsuliyyəti**

**3.1.** Aksiya İştirakçısı təqdim olunan məlumatların düzgünlüyünə və Kartdan istifadə hüququna görə mövcud qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyəti daşıyır.

**3.2.** Vergilərin, rüsumların və icbari ödənişlərin ödənilməsi qüvvədə olan qanunvericiliyin müddəaları ilə üzərinə müvafiq öhdəlik qoyulmuş şəxs tərəfindən həyata keçirilir.

**3.3.** Sifarişçi/Tərəfdaş/Təşkilatçı onlardan asılı olmayan səbəblərdən Aksiya İştirakçısının viza ala bilməməsinə görə məsuliyyət daşımır.

**4. Şəxsi məlumatların emalı**

**4.1.** Aksiya çərçivəsində Aksiya İştirakçısı şəxsi məlumatlarının emalı üçün ayrıca əsas hesab edilən hazırkı Qaydaların şərtlərinə əsasən bağlanmış müqaviləyə uyğun olaraq Təşkilatçıya aşağıdakı şəxsi məlumatları təqdim edir: soyadı, adı, atasının adı və telefon nömrəsi. Bu

məlumatların emalı qaydaları Çatbotda olan məlumatların işlənməsi qaydalarının ayrılmaz tərkib hissəsidir.

**4.2.** 4.1-ci bənddə göstərilən şəxsi məlumatlar Aksiya İştirakçısının Aksiyada iştirak etmək hüququndan istifadə etməsi üçün Aksiya Müddəti ərzində emal edilir. Bu Qaydaların şərtlərini yerinə yetirmək məqsədilə bu cür şəxsi məlumatlar toplanacaq, işlənəcək, ötürüləcəkdir (Təşkilatçının və Tərəfdaşın xarici serverlərinə). Təşkilatçı bu cür şəxsi məlumatların sahibi və səlahiyyətli şəxsidir. Tərəfdaşın şəxsi məlumatlarla işləmə siyasəti var, lakin heç bir halda belə məlumatlar bu Qaydalara zidd olaraq emal edilə bilməz. Aksiya İştirakçısı Tərəfdaşın şəxsi məlumatların emalı siyasəti ilə aşağıdakı internet linkindən tanış ola bilər: ______________.

**4.3.** Qaydaların 1.1-ci bəndində göstərilən hərəkətləri yerinə yetirməklə Aksiya İştirakçısı şəxsi məlumatlarının emalı üçün göstərilən prosedura razılıq verir, həmçinin mövcud qanunvericiliklə ona verilmiş bütün hüquqlarla tanış olduğunu təsdiqləyir.

**5. Digər müddəalar**

**5.1.** Təşkilatçı hazırkı Aksiya Qaydalarında nəzərdə tutulmuş öhdəlikləri yerinə yetirmək üçün üçüncü şəxsləri cəlb etmək hüququna malikdir.

**5.2.** Bu Qaydaların birmənalı olmayan təfsirinə, eləcə də Qaydalarla tənzimlənməyən hər hansı mübahisəli məsələlər və/və ya məsələlərə şərait yaradan vəziyyət baş verdikdə, Aksiya Təşkilatçısı/Sifarişçisi belə məsələlərin həlli ilə bağlı qərar vermək səlahiyyətini özündə saxlayır. Aksiya Təşkilatçısının/Sifarişçinin bu qərarı yekun və qəti hesab olunur və ona qarşı iddia tələbi irəli sürülə bilməz.

**5.3.** Sifarişçi və Təşkilatçının qarşılıqlı razılığı ilə Aksiyanın qüvvədə olma müddəti dəyişdirilə və ya Aksiyaya vaxtından əvvəl xitam verilə bilər. Aksiya Müddətinin dəyişdirilməsi və ya ona vaxtından əvvəl xitam verilməsi Çatbotda bu məlumatın yenilənərək dərc olunması nəticəsində mümkündür.

**5.4.** Bu Qaydalar və onlara edilən düzəlişlər tanışlıq üçün Çatbotda yerləşdirilir.

**5.5.** Bank/Sifarişçi/Təşkilatçı/Tərəfdaş Kart Sahibləri tərəfindən Xidmətlərin üçüncü şəxslərə ötürülməsi və belə üçüncü şəxslərin onlardan istifadə etməsi imkanını məhdudlaşdırmır.

**5.6.** Təşkilatçı Aksiya Müddəti ərzində mövcud Qaydalara dəyişiklik etmək hüququnu özündə saxlayır.